# 90 YAŞLI TƏHSİL MƏBƏDİ

***Hörmətli redaksiya 2022-ci ilin aprel ayının 27-də Azərbaycan Xalq Təhsili Muzeyinin yaranmasının 90 illi tamam olmuşdur. Yaranmasından 90 il keçən Xalq Təhsili Muzeyi qədim zamanlardan başlayaraq müasir dövrə qədər Azərbayanda pedaqoji fikrin və təhsilin inkişafı tarixini əks etdirən, bütövlükdə təhsil siseminin nailiyyətlərni təbliğ edən respublika əhəmiyyəli müəssisədir.1969-cü ildə H.Əliyevin hakimiyyətə gəlişi ilə bütün sahələrdə olduğu kimi, muzey işində də dəyişikliklər dövrü başlanmışdır. Təhsil sahəsində aparılan köklü dəyişikliklər muzeyin zənginləşməsinə səbəb olmuşdur. Təqdim olunan materialda muzeyin yaranması və fəaliyyətinə nəzər salənmışdır. Oxucuların marağına səbəb olacağı üçün materialı təqdim edirik.***

Azərbaycan kifayət qədər zəngin tarixə malik bir ölkədir. Dünyanın ən qədim insan məskənlərindən sayılan Azıx mağarasından tapılan maddi-məişət əşyaları, bu gunümüzə qədər gəlib çatmış Qobustan ərazisindəki qayaüstü rəsmlər, Kür-Araz ovalığında aşkarlanan küp qəbirlərdəki müxtəlif məişət və bəzək əşyaları, dəfn adətləri Azər xalqının qədim mədəni köklərə malk olmasını təsdiq edir. Qeyd olunanlar, Norveç səyyahı və alimi Tur Xeyedalın dediyi ...Bəşəri sivilizasiyası məhz Azərbaycanda yaranıb“ sözlərinin həqiqət olduğunu göstərir.

Azərbaycan qədim İpək yolnun üstündə yerləşmişdir. Ölkənin zənginlikləri daim yadellilərin diqqətini cəlb etmiş, zaman-zaman torpaqlarımız yadellilərin işğalına məruz qalmışdır. İşğalların nəticəsi olaraq bir çox mənəvi dəyələrimizi, xüsusən də öz dövrü üçün kifayət qədər mükəmməl olan 52 hərfdən ibarət Alban əlifbamızı qoruyub saxlaya bilməmişik.

VII əsrin ortalarından ərəblərin Azərbaycan torpaqlarına yürüşünün başlanması, bir tərəfdən Azəbaycana göz tikən imperiyalar arasında gedən mübarizə, digər tərəfdən qonşu tayfaların aramsız basqınları yerli türk tayfalarını gücdən salmış, nəhayət 90 ilə qədər çəkən müqavimətdən sonra Azərbaycan Arran adı ilə Ərəb xilafətinin tərkibinə daxil edilmişdir. İslam dini ölkədə hakim dinə, islam mədəniyyəti isə hakim mədəniyyə çevrilməyə başlamışdır. Beləliklə, həmin dövrdən başlayaraq XIX əsrin əvvələrinə qədər - Azərbaycaın çar Rusiyası tərəfindən işğalınadək Azərbaycan ərazisindəki təhsil müsəlman ölkələrinin təhsil sisteminə uyğun davam etmişdir.

Bəhs olunan dövrdə Azərbaycanda təhsil müəssisələrinin bir neçə forması mövcud olmuşdur. Məktəblərdə ancaq ilkin təhsil verilir, yəni oxumaq və yazmaq öyrədilir, mədrəsələr isə orta təhsil tədris olunurdu. Artıq XII əsrdə ali təhsil verən mədrəsələr yaranmışdır. Burada tədris ərəb və fars dllərində aparılmışdı. Sonralar bu müəssisələrdə ilahi dərslərlə yanşı ədəbiyyat, riyaziyyat, astronomiya, coğrafif kimi fənlər də tədris olunmağı başlamışdır.

Orta əsrlərdə Azərbaycan iki işğalın ağır nəticələrini yaşamış və müstəmləkə işğalına qarşı mübarizə davam etmişdir. XIII əsrin əvvəllərində başlayan monqol, XIV əsrin əvvəllərindən başlayan Teymur işğalları ölkənin iqtisadiyyatı ilə yanaşı mədəniyyətinə də öz təsirini göstərmişdir. Baş verən fəlakətlər, dağıdıcı müharibələr, ölkəni talan edən yadellilərin törətdikləri dağıntılar aradan qaldırılmaqla yanaşı, xalqın böyük oğuları Nizami, Füzuli, Xaqani ən möhtəşəm əsərlərini yaratmışlar. Nəsirəddin Tusi, İmaməddin Nəsimi kimi elm adamları yetişmiş, azər-türk dili nəinki Azərbaycanda, həmçinin Qafqazda və Yaxın Şərqdə böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Böyük rus mütəfəkkiri Bestujev Marlinskinin “Tiflisskoe vedomosti” qəzetinin 1831-ci il tarixli 6-cı sayında yazdığı kimi, “...Fransız dili Avropada olduğu kimi, tatar dili (Azər dili-M.Ə.) ilə Zaqafqaziyanın bir qurtaracağından o biri qurtaracağına qədər getmək mümkün olmuşdur”.

XIX əsr Azərbaycan tarixinin ən ağrılı və şərəfli səhifələrindən birini təşkil edir. Xalqımız həm cənub, həm də şimal qonşularına qarşı mübarizə aparmaqla yanaşı, torpaqlarımıza göz tikən mənfur ermənilərin fitnə-fasadlarına da dözməli olmuşdur. Mənşəcə erməni və gürcü olan çar generalları - satqın və xəyanətkar Sisianov, at oğrusu Mədətov, brilyant oğrusu Lazarev, erməni zabiti Korqanov və başqaları öz qəddarlıqları və amansızlıqları ilə Azərbaycan türkünü əsl soyqırıma, kütləvi qırğınlara məruz qoydular. Azərbaycanlı əhalinin qəsdinə duran çar generalları erməni mənşəli zabitlərin, erməni keşiş və məliklərinin fitvası və bələdçiliyi ilə yerli əhaliyə amansız divan tutdular. Bu qətlamların qurbanları arasında təhsil işçiləri də az olmamışdır. Bütün çətinliklərə baxmayraq, Azərbaycan təhsili XIX əsrdə daha da təkmilləşmiş, ziyalılar təhsilin keyfiyyətini yaxşılaşdırılmasına, yerli millətlərdən olan pedaqoji kadrların hazırlığı sahəsində ölçüyəgəlməz işlər həyata keçirməyə müvəffəq olmuşlar.Nəhayət, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqın həyatında ciddi dəyişikliklərə səbəb oldu. Azər-türk dili dövlət dili statusu aldı, məktəblərdə təhsil doğma dildə aparılmağı başlandı, BDU açıldı, 100 nəfər gənc təhsil almaq üçün xarici ölkələrə göndərildi.

Pedaqoji muzey. AXC-nin həyata keçirdiyi tədbirlər içərisində pedaqoji muzeyin yaradılması mühüm əhəmiyyətə malikdir. AXC dövründə parlament yanında pedaqoji muzey fəaliyyət göstərmişdir. Onun əsas vəzifəsi tədris bazasına daxil olan əyani vəsaitləri, metodiki ədəbiyyatı və dərslikləri nümayiş etdirmək olmuşdur. Şəhərin kənarında, Şamaxinka adlanan ərazidə yerləşən muzey iki kiçik otaqda fəaliyyət göstərmişdir. Əslində ölkədə yaranmış yeni sosial-iqtisadi, ictimai - siyasi və mədəni həyat muzeyin açılmasını şərtləndirən səbəblər sırasında idi. Muzeyin köməyi ilə qabaqcıl müəllimlərin iş təcrübəsi öyrənilmiş və müəllimlərə çatdırılmış, onlar yeni məktəb quruculuğuna cəlb edilmişlər.

Lakin Azərbaycan torpaqlarında gözü olan çar Rusiyasının varisi, keçmiş imperiya ambitsiyalarını davam etdirən Rusiya Federasiyası 1920-ci ilin aprelində AXC-ni süquta uğradaraq hakimiyyəti zorla ələ keçrdi, XI Qırmızı Ordu Azərbaycanı işğal etdi. Azərbaycan 1922-ci ildə təşkil olunan SSRİ-nin tərkibinə daxil edildi. İttifaq tərkibinə daxil olan digər respublikalarda olduğu kimi, Azərbaycanda da dövlətçilik atributları dəyişdirildi. Yeni Konstitusiya, bayraq, himn və gerb qəbul edildi.

Sovet Rusiyasının təhsil sistemi Azərbaycanda milli təhsil tariximizdəki Şərq təhsil ənənələri nəzərə alınmadan həyata keçirilməyə başlandı. Respublika hökuməti yerli şəraiti, milli mentaliteti nəzərə almadan Rusiyanın təhsil sistemini korkoranə tətbiq etməklə Moskvanın icraçısına çevrildi. Özünün rus elmi-pedaqoji qüvvələrini “qardaşlıq köməyi” adı altında Azərbaycanda yerləşdirməyə çalışan Moskvanın təkidi və tələblərinə uyğun olaraq 1920 -1921-ci illərdə Azərbaycan hökumətinin müvafiq qərarları əsasında respublikada “yeni təhsi sistemi qurucluğunun” əsası qoyuldu. Bu illərdə Azərbaycandakı ali məktəblərdə tədris-pedaqoji kadrların əsasını əsasən rus, erməni, yəhudi və digər millətlərdən olan “kollekiv heyət” formalaşdırıldı. Həmin ali məktəblərdə təhsilin milli dildə aparılması üçün “kifayət qədər milli kadrların olmaması” bəhanə gətirilərək yeni yaradılmış ali məktəblərin tədris - pedaqoji və elmi heyəti tərkibinə yuxarıda göstərdiyimiz millətlərin nümayəndələri cəlb olundular. Beləliklə, Sovet hökuməti özünün “proletar diktaturası” siyasətinə uyğun olaraq ali məktəblərə yalnız fəhlə və kəndlilərin övladlarını qəbul etməklə təhsili “öz prinsipləri” əsasında qurmağa başlamışdı.

Bolşeviklər hakimiyyti ələ keçrdikdən sonra ayrı-ayrı sahələrdə olduğu kimi, təhsil sahəsində də dəyişikliklər edildi. Sovet hakimiyyətinin ilk günlərindən ümumi təhsilə keçirilməsi qarşıya qoyuldu. 1920-ci il mayın 12-də köhnə tipli məktəblərin dəyişdirilməsi haqqında hökumətin dekreti qəbul edildi. Dekretə görə köhnə məktəb yeni tipli politexnik məktəblə əvəz edilirdi. Yeni məktəb iki dərəcədən: təhsil müddəti beş il olan bir dərəcəli və təhsil müddəti 4 il olan iki dərəcəli məktəblər yaradılırdı. Azərbaycanın bütün məktəblərində...hər cür təhsil haqqı ləğv edildi. Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiyası həmin dekretə uyğun olaraq 1920-ci il mayın 17-də “Azərbaycan Sovet Sosialist Respubliksının vahid zəhmət məktəbi haqqında Əsasnamə” ni, I və II dərəcəli məktəblər üçün tədris planı və proqramları təsdiq etdi, Azərbaycan dilində dərsliklərin tərtibi üçün komissiya yaradıldı.

Yeni məktəblərin müəllim kadrlarına olan ehtiyacını ödəmək məqsədilə Bakı, Şamaxı, Salyan, Qusar, Şuşa, Qazax və Kirovabadda (Gəncə) müəllim hazırlayan kurslar açıldı və bu kurslara 1.000 nəfər cəlb edildi. Bakı, Nuxa (Şəki) və Gəncədə qızlar üçün, Nuxa, Şuşa və Şamaxıda kişilər üçün yeni seminariyalar yaradıldı.

1920-1921-ci dərs ilində ümumilikdə respublikada 294 yeni məktəb açılmışdır. Aparılmış işlərin nəticəsi olaraq Azərbaycanda təhsil müddəti 5 il olan I dərəcəli məktəb, təhsil müddəti 4 il olan II dərəcəli məktəb, yeddiillik, doqquzillik məktəblər, I dərəcəli məktəbdən sonra ikiillik kəndli gənclər məktəbi, təhsil müddəti 2 il olan sənət texniki məktəb, Fabrik Zavod Şagirdliyi (FZŞ) məktəbləri və I dərəcəli məktəblərin əsasında dördillik texnikumlar yaradıldı. Bu əslində Azərbaycanın yeni məktəb sisteminin əsasını təşkil edirdi. Artıq 192627-ci tədris ilində respublikada 145.183 şagirdi əhatə edən 1.418 birinci dərəcəli, 1.974 şagirdi əhatə edən 49 ikinci dərəcəli, 4.405 şagirdi əhatə edən 17 yeddiillik məktəb var idi. Ümumilikdə, respublikada olan 1.488 məktəbində 162.253 şagird təhsil alırdı.

Azərbaycanda ilk yeddiillik məktəb 192425 - ci dərs ilində, birinci doqquzillik məktəb 192627-ci dərs ilində açılmışdır. 192627-ci dərs ilində respublikada 27.000 şagirdi əhatə edən 185 məktəb binası tikilmiş, həmin tədris ilində xalq maarifinə17.183.000 manat xərclənmişdir.

Bütün bunlara baxmayaraq, mövcud məktəb şəbəkəsi məktəbyaşlı uşaqların hamısının təhsilə cəlbinə imkan vermirdi. Statistik məlumatlara görə, 8-12 yaşlı uşaqların yalnız 39,4 faizi təhsilə cəlb olumuşdur. Yaranmış vəziyyət 1927-ci ilin noyabrında çağırılan Azərbaycan KP VIII qurultayında müzakirə edildi. Qurultay XMK R.Axundovun məruzəsini dinləyərək qərara aldı ki, “...pulsuz ümumi ibtidai təhsilə keçirilməsi hazırlığına başlansın və nəzərdə tutulan 10 il ərzində yerinə yetirilsin”.

Azərbaycan SSR MİK-nin 1928-ci ilin may ayında keçirilən III sessiyası da 10 il müd dətində ümumi icbari təhsilin həyata keçirilməsi zəruriliyini qeyd etdi və 1928-ci il iyunun 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Xalq Komissarlar Soveti “Azərbaycan SSR-də ümumi ibtidai təhsilin tətbiqi və şəbəkə komissiyaları haqqında” qərar qəbul etdi.VI Azərbaycan Sovetlər Qurultayı (1929-cu il) Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin III sessiyasında qəbul olunan qərarı bəyənərək həmçinin şəhər yerlərində, bəzi rayonlarda və məktəb dairələrində 8 yaşlı uşaqlar üçün ümumi icbari təhsilə keçməyin zəruriliyini qeyd etdi.Qəbul olunmuş qərarların icrası nəticəsi olaraq 192829-cu tədris ilindən başlayaraq bütün eyni tipli məktəblər üçün icbari olan tədris planları və proqramların təsdiq olundu, birinci və ikinci dərəcəli Azərbaycan məktəblərində dərslər yeni əlifba ilə keçildi.

Sov.İKP-nin XVI qurultayında ümumi ibtidai icbari təhsilə keçilməsi və savadsızlığın ləğv edilməsi müzakirə olundu. Qurultayın qərarına uyğun olaraq ÜİK(b)P MK 1930-cu il iyulun 25-də “Ümumi icbari ibtidai təhsil haqqında” qərar qəbul etdi. Qərarda 8 yaşından başlayaraq uşaqların və 11-15 yaşlı yeniyetmələrin məcburi oxudulması, habelə yeddiillik icbari təhsilə tədricən keçilməsi üçün konkret tədbirlər müəyyən edildi. Mərkəzin qərarını rəhbər tutan Azərbaycan SSR Xalq Komissarları Soveti 1930-cu il avqustun 29-da “Azərbaycan SSR-də ümumi icbari ibtidai təhsilin həyata keçirilməsinə dair” xüsusi qərar qəbul etdi. Qərarda bildirilirdi ki, “...Azərbaycan SSR-də... ümumi icbari ibtidai təhsil 2 il ərzində elə tətbiq edilsin ki, 193233-cü dərs ilində icbari təhsil Azərbaycan SSR-in bütün ərazisində yerinə yetirilmiş olsun”.

***(Davamı var)***

***Mais Əmrahov***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan Respublikasının tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, professor***

***Məhsəti MAİSQIZI,***
***ADPU-nun Şəki filialının baş müəllimi.***